

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 80 (20.981)

2 may 2014-cü il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaş rayonuna səfərə gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Ağdaş şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin yeni ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaşda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyəti adından çıxış edən Şəhla Hacıbalayeva Ağdaşın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ağdaş Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaş rayonuna səfəri çərçivəsində mayın 1-də Yeni Azərbaycan Partiyası Ağdaş Rayon Təşkilatının inzibati binasının, Ağdaşda yeni tikilmiş meyvə emalı zavodunun, Ləki dəmir yolu vağzalının yeni binasının, Gilan yem emalı zavodunun, Ləki-Pirəzə-Xınaxlı avtomobil yolunun, 220 kilovoltluq "Ağdaş" elektrik yarımstansiyasının açılışlarında iştirak etmiş, Ağdaşda Bayraq Meydanında yaradılan şəraitlə, Heydər Əliyev parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İqdır Vilayətinin valisi ilə görüşmüşdür



Mayın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası İqdır Vilayətinin yeni valisi Davut Haner ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Ali Məclisin Sədri ona yeni vəzifəsində uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi münasibətilə Ali Məclisin Sədrinə təbriklərini çatdıran Davut Haner ilk dəfə 2001-ci ildə Naxçıvanda olduğunu, ötən müddətdə muxtar respublikanın sürətlə inkişaf etdiyini bildirmişdir. Əldə olunan inkişafı Azərbaycanda uğurla həyata keçirilən siyasi xəttin bəhrəsi kimi dəyərləndirən vali fəaliyyəti dövründə Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə çalışacağını vurğulamış, səmimi qəbula görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Azərbaycan-Türkiyə münasibətlərinin uğurla inkişaf etdiyini bildirmiş, möhkəm təməllər üzərində qurulan siyasi və iqtisadi əlaqələrin məmnunluq doğurduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, qardaş ölkələr arasındakı əlaqələr istər regional, istərsə də nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində davam etdirilir. Eyni zamanda Azərbaycan və Türkiyənin sürətli inkişafı hər iki ölkənin beynəlxalq aləmdəki mövqelərini daha da möhkəmləndirir.

Ali Məclisin Sədri Türkiyənin yaxın bölgələri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələrin əhəmiyyətini də diqqətə çatdırmış, münasibətlərin yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə əlaqələrin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi



**Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin növbəti məşğələsi keçirilmişdir.**

"Heydər Əliyev və Naxçıvanın muxtariyyət məsələsi" mövzusunda keçirilən 182-ci məşğələni giriş sözü ilə açan universitetin rektoru, professor Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə universitetdə keçirilən silsilə tədbirlərdən, müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasi irsinin öyrənilməsi və təbliği istiqamətində qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd olunmuşdur ki, Naxçıvandakı sosial-iqtisadi tərəqqi, elm, təhsil və səhiyyənin inkişafı, əhalinin rifah halının yüksəlməsi bir daha təsdiqləyir ki, Heydər Əliyev ideyaları ölkə başçısı və muxtar respublika rəhbəri tərəfindən uğurla davam etdirilir.

Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Zəhmət Şahverdiyev mövzu ilə bağlı məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, çox qədim tarixə, mühüm coğrafi, siyasi strateji əhəmiyyətə malik Naxçıvana qarşı mənfur ermənilərin əsassız iddialarının qarşısının alınmasında, bölgənin toxunulmazlığında 1921-ci ildə imzalanan beynəlxalq Moskva və Qars müqavilələri mühüm əhəmiyyət kəsb edir. Məruzədə 1992-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən bu müqavilələrin beynəlxalq səviyyədə yenidən siyasi gündəmə gətirilməsinin zəruriliyindən də bəhs olunmuşdur.

Zəhmət Şahverdiyev ümummilli lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətindən danışaraq dahi öndərin Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyətinin qorunmasında, burada geniş vüsət alan milli azadlıq hərəkatının idarə olunmasında, milli dövlət strukturlarının yaradılmasında əvəzsiz xidmətləri olduğunu bildirmişdir. Vurğulanmışdır ki, bu dövrdə dahi şəxsiyyət Heydər Əliyev nəinki Naxçıvanın toxunulmazlığı, bütövlükdə, Azərbaycanın tərəqqisi, müstəqil və demokratik dövlət quruculuğu, beynəlxalq diplomatik münasibətlərin tənzimlənməsi kimi taleyüklü məsələlərlə bağlı mühüm siyasi qərarlar qəbul etmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2014-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, keçirilən tədbirlər bir daha sübut edir ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin rəhbərliyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasında və qorunmasında əhəmiyyətli siyasi-tarixi rol oynamışdır.

## Avtomobil yolları yenidən qurulur

*"Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublikamızda da yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Yol infrastrukturunun yenidən qurulması cari ildə də mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır.*

Məlum olduğu kimi, 2014-cü il fevral ayının 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Culfa rayonundakı Əlincəqala tarixi abidəsinin bərpa edilməsi haqqında Sərəncam imzalamışdır. Abidənin bərpası məqsədilə Çeşməbasar-Boyəhməd avtomobil yolundan tarixi abidəyədək olan 0,8 kilometr məsafədə yeni avtomobil yolu çəkilmiş, yola suötürücü borular salınmış, torpaqbərkitmə işləri aparılmışdır.

Yol-nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən kompleks tədbirlər magistral yollarla yanaşı, kəndlərarası və kənddaxili avtomobil yollarını da əhatə edir. Hazırda Babək qəsəbəsində daxili avtomobil yollarının, uzunluğu 16 kilometr, eni 9 metr, asfalt hissəsinin eni 7,2 metr olacaq Yarımca-Qahab-Naxışnərgiz, Şərur rayonunda uzunluğu 4 kilometr olacaq Kürkənd avtomobil yollarının yenidən qurulması istiqamətində işlər davam etdirilir, yol yatağı genişləndirilir, su keçidlərinə beton borular salınır, qum-çınqıl tökülərək bərkidilir. Ayrı-ayrı hissələrdə yol kənarlarına beton bardürlər düzülür, suaparıcı beton kanallar çəkilir.

Onu da qeyd edək ki, inşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün obyektlərə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin müasir maşın-mexanizmləri və təcrübəli inşaatçıları cəlb edilmişdir.

## Miqrasiya sahəsində maarifləndirici tədbirlər davam etdirilir

*Dünən Babək rayonunda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbiri keçirilib. Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Vəli Vəliyev açıb.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Şahin Nəbiyevin, Rahib Kərimovun, Zakir Məmmədovun, Kənan Məmmədovun çıxışları olub. Çıxışlarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, onlara Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi qaydalarından danışılıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti səlahiyyətləri çərçivəsində miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqinin təşkil edilməsi, miqrasiya sahəsində vahid informasiya sisteminin yaradılması və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə ölkədəolma müddətinin uzadılması, həmçinin haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazələrin verilməsi ilə məşğul olur, vətəndaşlıq məsələlərinin həllində iştirak edir.

Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan şəxslərin məsuliyyəti barədə də söhbət açılan tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

Azərbaycanın özü qədər əbədi

# Milli dəyərlərimizin hamisi

## Azərbaycan dilinin də hərtərəfli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

*Azərbaycan dili çox qədimlərdən formalaşmış və böyük bir inkişaf yolu keçərək günümüzə gəlib çatmışdır. Bu dil uzaq keçmişdə xalqımızın ictimai həyatında böyük nüfuz qazanmış, zəngin inkişaf mərhələləri keçmişdir. Görkəmli dövlət xadimi, dahi rəhbər Heydər Əliyev milli dilimizin inkişafına, beynəlxalq münasibətlər sisteminə yol tapmasına, zənginləşməsinə böyük əhəmiyyət verirdi. Ulu öndər həmişə Ana dilini ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla və vətənpərvərliklə bağlayırdı. Ümummilli lider Heydər Əliyev Azərbaycan dilini millətin milliliyini saxlayan ən böyük vasitə sayırdı. Bu, danılmaz bir faktdır ki, milli dövlətçiliyin başlıca rəmzi də elə Ana dilidir.*

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Ana dilinin himayədarı olmuş xalqımızın böyük oğlu Heydər Əliyev səlis, rəvan və aydın nitqi ilə həm də gözəl və dəyərli bir nümunə yaratdı. Müdrik rəhbər onu həmişə anlatmağa və şüurlara biryolluq həkk etdirməyə çalışırdı ki, dil yalnız mənəviyyat problemi, filoloji fikir məsələsi deyil, Azərbaycançılıq fəlsəfəsinin təməl problemidir. Bu səbəbdən də ulu öndər Heydər Əliyevin Ana dilimizə göstərdiyi həssas münasibətdə millətin və dövlətin taleyi dayanırdı. Çünki dil həm də şərəfli dünənimiz, qürurlu bu günümüz və gələcəkdəki əbədiliyimizdir.

***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”***, – deyən ümummilli liderimiz Azərbaycana rəhbərlik etməyə başladığı andan milli dilin inkişafı istiqamətində məqsədyönlü iş aparmış və bu siyasəti bütün çətinliklərə baxmayaraq, dönmədən həyata keçirmişdir. Görkəmli dövlət xadimi mövcud tarixi təcrübəni və müasir dövrün tələblərini nəzərə alaraq mükəmməl bir dil siyasəti yürütmüşdür. Ümummilli liderimiz Heydər Əliyevin milli dilimizin qorunmasına, inkişafına göstərdiyi böyük qayğının, həssas münasibətin nəticəsi idi ki, 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir.

1993-cü ildən sonra müdrik rəhbər Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dilinə yalnız sözdə deyil, işdə çevrilməsi üçün lazımi tədbirlər həyata keçirmiş, bu dilin dünya azərbaycanlıları arasında itməkdə olan nüfuzunu bərpa etmək, böyük Azərbaycanın ünsiyyət vasitəsi, milli dəyəri olması uğrunda mübarizə aparmış və Azərbaycan dilinə sevgini Azərbaycançılıq ideologiyasının əsas əlamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində ulu öndər Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli Fərmanı tarixi rol oynamışdır. Ulu öndər bu fərmanın tətbiqini sürətləndirmək məqsədilə 2001-ci il avqustun 9-da Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında daha bir Fərman imzalamışdır. Bu fərmana əsasən, hər il avqustun 1-i dil bayramı kimi qeyd olunmaqdadır. Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi dahi rəhbər Heydər Əliyevin 1969-cu ildən başladığı milli dil siyasətinin davamı və qanunauyğun nəticəsidir.

Təsadüfi deyildir ki, xalqımızın böyük oğlu ümummilli sərvətimizə yüksək qiymət verərək demişdir: ***“Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksəksəviyyəli yazı normaları vardır”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında” 21 yanvar 2013-cü il tarixli Sərəncamında deyilir: “Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük milli sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır”.

Azərbaycan Prezidenti cənab İlham Əliyev də dövlətin milli dil siyasətində ulu öndərin müəyyən etdiyi kursu davam etdirir, Ana dilimizin keşiyində dayanan, onun mühafizəsi yolunda qətiyyət göstərən dövlət başçısı kimi milli-mənəvi dəyərlərə sadiqliyini nümayiş etdirir. Ziyalılar, alimlər, yazıçı və şairlər, eləcə də sadə insanlarla keçirdiyi görüşlər zamanı dəfələrlə Azərbaycan dilinə olan sevgisini yumşaq, səlis, təmiz və aydın nitqi ilə göstərmişdir.

Ölkə başçısı 23 may 2012-ci ildə “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” Sərəncam imzaladı. Ümumiyyətlə, qloballaşma dövründəki dilimizin gələcək taleyi və perspektivləri baxımından çox böyük əhəmiyyət kəsb edən bu dövlət proqramı ölkə Prezidentinin müxtəlif zamanlarda imzaladığı sərəncamlardan irəli gələn məsələlərin kompleks şəkildə həllinə yönəlmiş mühüm bir tarixi-ictimai hadisədir.

Müasir dünya xalqlarının və dövlətlərinin taleyində son dərəcə mühüm rol oynayan, ölkələrin sosial-siyasi, mədəni inteqrasiyasına və tərəqqisinə stimul verən qloballaşma prosesləri bəzi mənfi cəhətlərə də malikdir. Bu sırada ilk növbədə, xalqların milli-mənəvi dəyərlərinin aşınmaya məruzqalma və unudulma təhlükəsini qeyd etmək lazımdır. Bu hal milli-mənəvi dəyərlərin yabançı təsirlərdən qorunması zərurətini çağdaş dövrdə dünya xalqlarının, o cümlədən doğma xalqımızın qarşısında duran ən vacib vəzifələrdən birinə çevirmişdir.

Bu kontekstdən yanaşaraq deyə bilərik ki, ana dilimizin zamanın tələblərinə uyğun istifadəsi, eləcə də dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması, gənc nəslin Ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dil normalarına ciddi surətdə əməl edilməsi qloballaşma dövrünün tələbidir. Dövlət proqramında bildirilir ki, respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, Ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Bildiyimiz kimi, dövlət proqramının mütəxəssislər tərəfindən hazırlanmış layihəsi mətbuatda dərc olunmuşdur. Bu mühüm dövlət sənədi ixtisas sahiblərinin, mətbuat təmsilçilərinin, dövlət qulluqçularının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə geniş müzakirə olunduqdan sonra bir sıra təkliflər nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramda da qeyd edildiyi kimi, dövlət proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir.

***Beləliklə, ulu öndər Heydər Əliyevin ideyaları işığında ölkə Prezidentinin qloballaşma dövründə dilimizlə bağlı imzaladığı sərəncamlardan irəli gələn vəzifələrin uğurlu icrası doğma Ana dilimizin, Azərbaycan dilinin inkişafında, həm də dilçilik elmimizin tarixində yeni mərhələnin əsasını qoymuşdur.***

**Əbülfəz QULİYEV**
*AMEA-nın müxbir üzvü*

# Muxtariyyət tarixinə qızıl hərflərlə yazılan aprel ayı



**Ötən ay muxtar respublikanın tarixinə qızıl hərflərlə yazıldı. Muxtariyyətinin 90-cı ildönümünü yaşayan Naxçıvanın keçdiyi tarixi yola ən yüksək səviyyədə tarixi-siyasi qiymət verildi. Təkcə ölkə ictimaiyyətinin deyil, ölkəmizdə fəaliyyət göstərən xarici dövlətlərin diplomatik nümayəndəliklərinin, dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən nüfuzlu kütləvi informasiya vasitələrinin də nəzərləri Naxçıvana çevrildi.**

Aprel ayının ən yaddaqalan hadisəsi, ilk növbədə, cənab Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri və muxtariyyətin 90 illik təntənəli yubiley tədbirində iştirakı oldu. Dövlət başçısı Naxçıvanda görülən işləri, Naxçıvanın iqtisadi, sosial, mədəni inkişafını, hərbi gücünü yüksək qiymətləndirdi, bu qədim diyarın Azərbaycan üçün nə dərəcədə strateji əhəmiyyət daşıdığını bir daha bəyan etdi. Prezident təkcə yubiley tədbirində deyil, Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında da Naxçıvandan söz açdı: ***“Bu gün Azərbaycan Ordusunda olan texnika ən güclü ordulardan da geri qalmır. Eyni zamanda bu yaxınlarda Naxçıvanda olarkən oradakı yeni texnikanın nümayişi də göstərir ki, Naxçıvan ordusu da bu gün dünya ordularında olan ən müasir texnikaya malikdir. Artıq orada həm müasir artilleriya qurğuları, döyüş və nəqliyyat helikopterləri, tank əleyhinə qurğular, hava hücumuna qarşı qurğular, ən müasir “T-72”, “T-90” tankları və digər hərbi silah-sursat vardır, daha da artacaqdır. Biz daha da güclü olmalıyıq və olacağıq”.***

Ali Baş Komandan bu fikirləri aprelin 7-də Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə daxil olan yeni texnika və silahlara baxarkən sonra səsləndirdi.

Ordumuzun qüdrətlənməsi ilə bağlı Ali Baş Komandanın qarşıya qoyduğu tələbin Naxçıvanda hansı səviyyədə yerinə yetirildiyi isə 90 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışında açıqlandı. Ali Məclisin Sədri dedi: ***“Muxtar respublikada ordu quruculuğu və müdafiə ilə bağlı tədbirlər də diqqət mərkəzindədir. Bu gün möhtərəm Prezidentimizin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəticəsində yaradılmış ordu birləşmələri etibarlı müdafiəni təmin etməklə yanaşı, işğal olunmuş torpaqların azad edilməsi barədə Ali Baş Komandanımızın bütün tapşırıqlarını yerinə yetirməyə hazırdır!”***

Ölkə başçısının Naxçıvana budəfəki səfəri Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının açılışı, Naxçıvan Biznes Mərkəzində yaradılan şəraitlə tanışlıq, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun istifadəyə verilməsi, “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyalarının işə salınması, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının açılışı ilə də yaddaqalan oldu.

Aprel ayı ərzində Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyan tarixi-siyasi-hüquqi sənədlər də imzalandı. Məsələn, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2014-cü il tarixli Sərəncamı. Bu sərəncam Naxçıvanda tarixi-mədəni irsin və milli memarlıq ənənələrinin qorunub saxlanılmasını, müasir şəhərsalma, istirahət və turizm infrastrukturunun yeniləşdirilməsini və abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi daşıyır.

Təsadüfi deyil ki, sosial-iqtisadi inkişaf sahəsində həyata keçiriləcək işlərin əsas icraçısı sayılan qurumun yaradılması ilə bağlı sərəncam da məhz eyni gündə rəsmiləşdi. Aprelin 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin yaradılması haqqında” Sərəncam imzaladı.

Ölkə başçısının Naxçıvanla bağlı digər bir Sərəncamı isə “Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması ilə bağlı tədbirlər haqqında” oldu. Aprelin 11-də imzalanan sərəncama əsasən, Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9 (doqquz) milyon manat ayrıldı.

Naxçıvan üçün həm iqtisadi, həm də beynəlxalq səviyyədə əhəmiyyət daşıyan digər bir sənəd isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına səfəri zamanı imzalanan “Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında “Ordubad” və “Marazad” Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında” saziş oldu. Ümumilikdə, qeyd etmək lazımdır ki, Naxçıvanın xarici dövlətlərlə iqtisadi, humanitar və mədəni sahələrdə əlaqələrinin genişlənməsi və bu əlaqələrin Azərbaycan Respublikasının müəyyən olunmuş vahid xarici siyasət konsepsiyasına uyğun inkişaf etdirilməsi blokada şəraitində olan bu diyar üçün xüsusilə əhəmiyyətlidir. Muxtar respublikanın 90 illik yubiley tədbirlərində iştirak edən xarici ölkə səfirlərinin Naxçıvanın inkişafı ilə bağlı səsləndirdikləri fikirləri də Azərbaycanın ayrılmaz tərkib hissəsinə beynəlxalq səviyyədə artan marağın göstəricisi hesab etmək olar. Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberq, aprelin 22-də Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tsuquo Takahaşi ilə görüşləri də məhz bu əhəmiyyətli məqamın göstəricisidir. Təsadüfi deyildir ki, Norveç Avropanın iqtisadi inkişaf və sosial rifah səviyyəsinə görə öncül dövlətlərindən biridir; həmçinin Yaponiya Asiya qitəsində eyni statusdadır. Hər iki ölkə Azərbaycan Respublikası və onun Naxçıvan Muxtar Respublikası ilə iqtisadi, texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır.

Naxçıvanın muxtariyyətinin 90 illik yubileyi ilə əlaqədar ölkənin və dünyanın nüfuzlu kütləvi informasiya vasitələrində yazıların təqdim edilməsi ilə yanaşı, ölkə paytaxtında və bir sıra xarici ölkələrdə də yubiley tədbirləri məhz aprel ayında keçirildi. Rumıniyada Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş tədbir də məhz aprel ayına təsadüf etdi.

Aprel ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sədərək rayonunda olması, burada yeni nasos stansiyasının istifadəyə verilməsi mərasimində iştirak etməsi, sərhəddə yerləşən Sədərəkdə meyvə və taxıl əkini sahələrinin genişləndirilməsi, eləcə də ərazidə tərəvəz məhsulları əkininin aparılması barədə tapşırıqlarını verməsi də aprel ayının əsas hadisələrindən biri oldu.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü ilə əlaqədar tədbirlərin, hərbi xadim, general-mayor II Kalbalı xan Naxçıvanskinin 190 illik yubileyi ilə əlaqədar elmi konfransın keçirilməsi, Naxçıvandan Qəbələyə aviareysin açılması, Naxçıvanda ürək və damar cərrahiyyəsinə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi, gənclər üçün “Naxçıvanı kəşf et” layihəsinin reallaşdırılması da aprel ayının ictimai-siyasi xəritəsində diqqət mərkəzinə düşən hadisələrdəndir.

Ümumilikdə, muxtar respublikanın tarixinə xüsusi hadisələrlə düşən 2014-cü ilin aprel ayında baş verən əsas ictimai-siyasi hadisələrə nəzərə saldıqda inkişafın Naxçıvan modelini xarakterizə edən aşağıdakı nəticələrə gəlmək olar:

*– Naxçıvanın iqtisadi inkişafı kifayət qədər yüksək səviyyədədir, lakin bu, son hədd deyil;*

*– Naxçıvanın iqtisadi inkişafı bu regionun həm də hərbi gücünün artırılmasını, hər hansı bir təcavüzkar müdaxiləyə qarşı layiqli cavab verilməsini şərtləndirir və təmin edir;*

*– yeni istehsal müəssisələrinin yaradılmasının, genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılmasının, hərbi potensialın gücləndirilməsinin əsas məqsədi əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi, sabitliyin və inkişafın davamlılığının təmin edilməsidir;*

*– Naxçıvanın inkişafı Vətən sevgisindən, milli ruhdan qaynaqlandığı kimi, inkişafın özü də milliliyimizə bağlılığın gücləndirilməsinə xidmət etməlidir.*

**Elnur KƏLBİZADƏ**

Hərb tariximizdən

# Unudulmaz sərkərdə

General-leytenant, İrəvan süvari alayının rəisi Vrangel 1853-cü il iyulun 30-da Qafqaz ordusunun baş komandanına göndərdiyi məlumatda yazırdı: *“Qoşunlarımızın hədsiz igidliyi barədə əlahəzrət cənabınızın qarşısında təkrarən şəhadət verməyi özümə borc bilirəm ki, zabit və əsgərlər döyüşə həvəslə gedirlər: yüngül yaralananlar cəbhəni tərk etmir, yaralılar isə döyüş meydanında qalırlar. Tibb işçiləri elə oradaca onlara yardım göstərirlər. 18 iyul tarixli ilk məlumatımda adları çəkilən kapitan İsmayıl xandan və podporuçik Kalbalı xandan başqa, müsəlmanlardan ibarət bəy drujinasından praporşiklər Əli xan və Paşa xanın, 4 nömrəli müsəlman polkundan kapitan Hüseyn Sultanın adlarını çəkməliyəm. İsmayıl xanla Kalbalı xan hücum zamanı öz hissələrinin önündə gedərək onlara qorxmazlıq nümunəsi göstərirdilər. Onlar da döyüşlərdə bu məlumatda adları çəkilənlərlə bərabər iştirak edirdilər”.*

Bu məlumatda adıçəkilən podporuçik Kalbalı xan haqqında söhbət açacağımız general-mayor II Kalbalı xan Kəngərli-Naxçıvanskidir.

General-mayor II Kalbalı xan I Ehsan xan oğlu Naxçıvanski 1824-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. Moskvadakı Rusiya Dövlət Hərbi-Tarix Arxivində və Tiflisdəki Gürcüstan Milli Arxivində onun xidmət kitabçaları saxlanılır. Ancaq heç birində doğulduğu gün qeyd edilməmişdir.

İlk təhsilini Naxçıvanda alan Kalbalı xanı sonralar atası general-mayor Ehsan xan Sankt-Peterburqdakı Paj korpusunda oxumağa göndərmişdir. Bu haqda əvvəlki yazımızda ətraflı məlumat vermişik.

Arxiv sənədlərində göstərilir ki, Rusiya hökmdarı I Nikolayın icazəsi ilə Paj korpusunda təhsil alan Kalbalı xan xəstələndiyi üçün Naxçıvana qayıtmışdır. Bu hadisə 1846-cı ilə təsadüf edir. Bir müddət müalicə olunduqdan sonra, 1848-ci ildə Naxçıvan milisinin rəisi vəzifəsinə təyin edilmişdir.

Çar hökumətinin 1848-ci ildə Qafqazda apardığı döyüşlərə naxçıvanlılar da göndərilirdilər. Qeyd edək ki, həmin illərdə Naxçıvan milisinin rəisi işləyən Kalbalı xana tapşırılır ki, Naxçıvanın süvari Kəngərlilərini Dağıstana aparsın. Həmin döyüşlərə aid sənədlərə süvari Kəngərlilər “həvəskar ovçu” kimi qeyd edilmişdir. Amma, əslində, burada könüllülük yox, döyüşmək üçün məcburi əmr vardı. Naxçıvanlı döyüşçülər 1848-ci ildə məşhur Gergebil döyüşlərində iştirak edirlər. Kalbalı xan ilk zabit rütbəsini bu döyüşdən sonra almışdır.

21 may 1849-cu ildə II Kalbalı xana praporşik hərbi rütbəsi verilir. Onun özünün arzusu nəzərə alınaraq o, 14 aprel 1851-ci ildə İrəvan hərbi qubernatorunun xüsusi tapşırıqlar üzrə kiçik məmuru vəzifəsində işləyir. Bir neçə aydan sonra, 13 dekabr 1851-ci ildən həmin vəzifənin böyük məmuru kimi fəaliyyətini İrəvan şəhərində davam etdirir.

Əla hərbi xidmət göstərdiyi üçün 30 yanvar 1853-cü ildə ona podporuçik rütbəsi verilir.

Rusiya ilə Türkiyə arasında Krım (Şərq) müharibəsi başlamazdan əvvəl Qafqazda Rusiya hökumətinin başbilənləri Kəngərlilərin süvari qoşunlarını ləğv etməyi qərara aldılar. Çünki onlar yerlərdə müsəlmanların üsyanlarından qorxurdular. Maraqlı haldır ki, 1853-cü ilin oktyabrında artıq II Kalbalı xan 300-dək atlı silahlı dəstə hazırlaya bilmişdi. Çar Rusiyası müsəlmanları orduya aparmasa da, naxçıvanlılar könüllü olaraq hərbi xidmətə gedirdilər.

Çar hökuməti müsəlmanların qiyam qaldıracaqlarından ehtiyat etdiyi üçün 1853-cü ildə Naxçıvanın Kəngərli süvarilərinin fəaliyyətini dayandırır. Amma İsmayıl xan və onun qohumları qərara alırlar ki, Naxçıvanı təklənməyə imkan verməsinlər. Ona görə də İrəvan şəhərində Bəy drujinasını yaradırlar. Xan və bəylərin oğlanlarını bu drujinaya yazırlar. Bütün bu işlərə İsmayıl xan Kəngərli-Naxçıvanski başçılıq edir. Bununla da, bir daha Naxçıvan Kəngərliləri özlərini təsdiq edirlər.



14 may 1854-cü ildə II Kalbalı xan Bəy drujinasına rəis təyin olunur. 17 iyul 1854-cü ildə Çınqıl yüksəkliyində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Kalbalı xan 15 aprel 1855-ci ildə dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeni ilə təltif edilir.

1856-cı ildə Paris şəhərində İngiltərə, Fransa, Türkiyə üçlüyü ilə Rusiya sülh müqaviləsi bağlanır və Krım müharibəsi başa çatır.

16 avqust 1856-cı ildə II Kalbalı xan Əlahəzrətin saray (leyb) qvardiyasının Qusar polkunda poruçik hərbi rütbəsində xidmətini davam etdirir. İran hökuməti 1857-ci ildə onu ikinci dərəcəli “Şir və Günəş” ordeni ilə mükafatlandırır.

II Kalbalı xan hərbi işi əla bildiyi üçün onu 22 sentyabr 1859-cu ildə Qafqaz ordusuna dəyişirlər. Öz fitri istedadı və bacarığı ilə ordu rəhbərliyinin hörmətini qazanan II Kalbalı xan hərbi fəaliyyətində tez-tez təltif edilir. Belə ki, 12 aprel 1859-cu ildə ştabs-rotmistr, 3 aprel 1860-cı ildə rotmistr hərbi rütbələrini alır. O, 22 iyun 1862-ci ildə ordudan çıxarılır və İrəvan quberniyasında torpağın mühafizəsi inspektoru vəzifəsinə təyin edilir. Bir müddət bu vəzifədə işlədikdən sonra, yəni 19 aprel 1864-cü ildə II Kalbalı xana polkovnik hərbi rütbəsi verilir. Qeyd edək ki, torpağın mühafizəsi məsələləri ilə məşğul olduğu illərdə Naxçıvanda və İrəvanda su kəmərinin çəkilişində, irriqasiya işlərinin aparılmasında yaxından iştirak etmiş və xeyriyyəçilik göstərmişdir. Bu haqda bir az sonra.

II Kalbalı xan 19 iyul 1867-ci ildə inspektor vəzifəsindən azad edilərək yenidən Qafqaz ordusuna hərbi xidmətə çağırılır. Qafqaz ordusunda xidmət edərkən süvari döyüşçülərin hazırlanmasında fəallıq göstərdiyinə görə 28 mart 1871-ci ildə ikinci dərəcəli “Müqəddəs Stanislav” ordeni ilə təltif edilir. Qeyd edək ki, o, bu ordenin müsəlman hərbçilər üçün hazırlanmış variantını almışdır. Bu ordenin müsəlmanlar üçün hazırlanan variantına Rusiya hökmdarının tacı əlavə olunmuşdur.

Çox bacarıqlı hərbçi olan II Kalbalı xan hərbi xidmətdə fərqləndiyinə görə Qafqaz ordusunda qalmaqla həmin ordunun süvari hissəsinə seçilir. Ona 14 sentyabr 1874-cü ildə general-mayor hərbi rütbəsi verilir. II Kalbalı xan Qafqaz canişini Böyük Knyaz Mixail Nikolayeviç Romanovun yanında hərbi vəzifə tutduğu üçün (o, burada Əlahəzrətin saray (leyb) qvardiyasının Qusar polkunun siyahısında idi – müəllif) həmin illərdə Tiflisdə yaşamalı olur.

II Kalbalı xan Naxçıvanski 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsinin də iştirakçısı olmuşdur. O, Qafqaz hərbi dairəsinin 10 may 1877-ci il tarixli əmri ilə İrəvan qeyri-nizami süvari polkundan təşkil edilmiş briqadaya komandir təyin edilir. Döyüşlərdə mərdlik və igidlik göstərdiyinə, həmçinin Bəyazid qarnizonunu mühasirədən xilas etdiyinə görə II Kalbalı xan 11 dekabr 1877-ci ildə üçüncü dərəcəli (qılınclarla birgə) “Müqəddəs Vladimir”, 2 iyun 1878-ci ildə isə birinci dərəcəli (qılınclarla birgə) “Müqəddəs Stanislav” ordenləri ilə təltif edilir. Həmin ilin 13 iyulunda onu İkinci Süvari Diviziyasının komandiri təyin edirlər.

O həm də əsgər sayı diviziyaya çatan “Qafqazın uçan dəstələri”nə komandirlik edir. Ona igidliyinə görə 24 yanvar 1879-cu ildə birinci dərəcəli “Müqəddəs Anna” (qılıncla birgə) ordeni də verilmişdir. 1878-1879-cu illərdə İkinci Qafqaz Diviziyasının ikinci briqadasına və Birinci Qafqaz Diviziyasının ikinci briqadasına komandirlik edən II Kalbalı xan 16 mart 1880-ci ildə ordudan azad edilmişdir. Xidmət kitabçalarında olan qeydlərdən məlum olur ki, onu Qafqaz ordusunun sərəncamında saxlamaqla ordudan tərxis etmişlər. Onun – 7 iyun 1882-ci ildə olan məlumata əsasən – ildə 1524 rubl maaş və 1800 rubl yemək pulu alması haqda da məlumat vardır.

Ordudan azad edilən general-mayor II Kalbalı xan doğma vətəni Naxçıvana dönür və xeyriyyəçiliyini davam etdirir.

Naxçıvan, Bakı, Tiflis və Moskva arxivlərində saxlanılan sənədləri öyrənərkən məlum olur ki, hər iki qardaş – İsmayıl xan və II Kalbalı xan yaşadıqları illər ərzində Naxçıvanla daim yaxından əlaqə saxlamışlar. Onlar burada məktəblər açdırır, əkinçiliklə məşğul olur, bağ saldırırdılar. Çətinlik içində yaşayan həmvətənlərinin güzəranını yaxşılaşdırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Təsadüfi deyil ki, II Kalbalı xan Qafqaz Kənd Təsərrüfatı Cəmiyyətinin 1874-1877-ci illərdə həqiqi üzvü olmuşdur. Onun süvari atlarına aid (ancaq Azərbaycanla bağlı – müəllif) yazdığı maraqlı bir sənədi Tiflis arxivindən əldə etmişik. Həmin sənəd haqqında məlumatları yaxın vaxtlarda oxuculara təqdim edəcəyik. General-mayor II Kalbalı xan 1861-ci ildə Naxçıvan şəhərinə çəkilən su kəmərini ildə xəzinəyə 150 manat vermək şərtilə 25 il müddətinə icarəyə götürür. Sənədlərdə qeyd edilir ki, bir su xətti dini ibadətgaha, iki xətt qəza rəisliyinə, bir xətt qəbiristanlığa (indiki Böyük bağ), bir xətt poçt kontoruna, bir xətt isə böyük meydana çəkilir. II Kalbalı xan bir xətt də qəza məktəbinə çəkdirir. Qeyd edək ki, 1875-ci ildə qəza rəisi Avdeyevin göstərişi ilə qəbiristanlıq ləğv edilərək Böyük bağ salınmışdır.

Naxçıvan şəhərində İsmayıl xan və II Kalbalı xan qardaşlarına məxsus olan, 1846-cı ildən kərpic istehsal edən zavod da olmuş və Naxçıvan şəhərindəki bəzi binalar həmin kərpiclə inşa edilmişdir.

II Kalbalı xan hələ 26 sentyabr 1867-ci il tarixdə İrəvanın hərbi qubernatoru, general-mayor, knyaz Astafyevdən xahiş edir ki, Çeşməbasarda olan əkinlərini suvarmaq üçün Əlincəçaydan kanal çəkib su götürülməsinə icazə verilsin. Həmin kanalın açılışı böyük təntənə ilə qeyd edilmişdir.

II Kalbalı xan qvardiya polkovniki olduğu illərdə malikanələri olan ərazilərdəki təbii sərvətlərlə, faydalı qazıntılarla çox maraqlanırdı. O, 19 iyul 1868-ci ildə Qafqaz Dağ-Mədən İdarəsinə xahişnamə göndərmişdi. Bu xahişnaməyə əsasən, Qafqaz Dağ-Mədən İdarəsinin mühəndisi Sumikidze və İrəvan quberniya dəftərxanasının katibi Xamanov Ordubada gələrək geoloji analiz aparmış və burada yüksəkkeyfiyyətli (bir pudda 3 girvənkə metal) metal olduğunu müəyyən etmişdilər.

II Kalbalı xan analizdən keçirilən yüksəkkeyfiyyətli metalın nümunəsini quberniya Dağ-Mədən İdarəsinə göndərib xahiş edir ki, Ordubad dairəsində yerləşən Parağa, Tivi, Rumus, Biləv kəndlərinin dağlarında olan metalın istehsalına icazə verilsin.

Qafqaz Dağ-Mədən İdarəsinin geoloq-mühəndisi İ.Şutin 17 sentyabr 1868-ci ildə Naxçıvan qəza rəisinə xəbər verir ki, II Kalbalı xan tərəfindən göndərilən metal nümunəsindən hər puda görə, təxminən, 4 girvəngə mis alındığından istehsalına icazə verilir.

General-mayor II Kalbalı xan Naxçıvanda irriqasiya işləri ilə də məşğul olmuşdur. Keçəldağın ətəyində salınan Qanlı göl (Şahbuz rayonunun Kükü kəndi) onun əkinçilərə ən böyük hədiyyəsi idi. O, bu işi Krım tatarı olan Şahingireylə şərik etmişdir. Bu haqda da yazılarımız işıq üzü görüb. Ancaq Tiflis arxivindən yeni tapılan sənədlərimiz də var. Bütün bunlar məşhur sərkərdənin naxçıvanlılarla həmişə bir yerdə olmasının ən yaxşı nümunəsidir.

Nəmli səngərlərin, ağır döyüşlərin, Naxçıvana köçürülmüş erməni sahibkarlarla inadlı mübarizələrin (Tiflis arxivindən tapılan belə sənədlər vardır – müəllif) yaratdığı xəstəlik II Kalbalı xanı 59 yaşında həyatdan apardı. O, 1883-cü il aprelin əvvəllərində Naxçıvanda əbədiyyətə qovuşdu. Rusiyanın Hərbi Nazirliyinin əmri ilə onun adı 30 aprel 1883-cü ildə Qafqaz ordusunun siyahısından çıxarıldı.

Naxçıvan camaatı onu dərin kədər və böyük ehtiramla Naxçıvan xanlarının indiyədək şahidlik edən məqbərəsində (indiki İmamzadəyə bitişik bina) dəfn etdi. II Kalbalı xan Kəngərli irəvanlı mayor Əhməd xan Makinskinin qızı Xurşud xanımla ailə qurmuşdu.

Onların bu nikahından doqquz uşağı doğulmuşdur: Zeynabbəyim, II Ehsan xan, Bədirnisəbəyim, Cəfərqulu xan, Rəhim xan, Çimnaz xanım, Şahcahan (Şahbəyim) xanım, Hüseyn xan və Zərrintacbəyim.

Burada bir məsələyə aydınlıq gətirmək yerinə düşər. Moskvalı tədqiqatçılar yazdıqları kitablarda onun 8 övladı olduğunu qeyd edirlər. Və tərtib etdikləri şəcərədə (Fərhad Nağdəliyevin şəcərəsi) Şahcahan xanımla Çimnaz xanımı eyniləşdirirlər. Araşdırmalarımız göstərdi ki, bu, doğru deyildir. Çünki Çimnaz xanım əmisi general İsmayıl xanın oğlu Bəhman xanın həyat yoldaşı olmuşdur. Bu haqda sənəd vardır. Şahcahan (Şahbəyim) xanım isə 1883-cü ildə öz qohumları olan Maku xanlarından biri ilə ailə qurmuşdur. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində bu kəbin haqda sənəd vardır. Biz Makuda axtarışlar apardıq, onun qohumlarını tapdıq. Şahbəyim xanımın şəklini Tehrandakı varislərdən birinin evində olduğunu dedilər. Biz həmin fotoşəkli əldə etdik və o, Naxçıvan şəhərindəki Xan Sarayında nümayiş etdirilir.

***Bax beləcə. Az da olsa, unudulmaz sərkərdəmiz, adı qızıl hərflərlə Rusiyanın baş iqamətgahı olan Moskva Kremlinin Georgi Salonunda ağ mərmərə yazılan (№23) general-mayor II Kalbalı xanın ömür səhifələrini vərəqlədik. II Kalbalı xanın anadan olmasının 190 illiyi münasibətilə AMEA Naxçıvan Bölməsində keçirilən elmi konfrans tariximizə və görkəmli sərkərdələrimizə göstərilən böyük diqqətin, onların həyat və fəaliyyətinin öyrənilməsinə qayğının ifadəsidir.***

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

*“Tarixi Naxçıvan”*

# Unutsaq, unudularıq...

***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Ümummilli lider Heydər Əliyevin dəfələrlə, son günlərdə isə daha tez-tez eşitdiyimiz bu müdrik fikri Naxçıvanın muxtariyyət tarixinə verilən tarixi-siyasi qiymətdir. Bu fikir Naxçıvanın muxtariyyətinin qorunub saxlanılmasının vacibliyindən əlavə, tarixi Naxçıvan torpaqlarının unudulmamasını bizə xatırladır. Elə biz də dahi öndərin bu fikrinin işığında muxtariyyətimizin 90 yaşının tamam olduğu bir ərəfədə doğma Naxçıvanın tarixi əraziləri ilə bağlı araşdırmalar aparmaq, Naxçıvanın tarixi coğrafiyasının bu maraqlı məqamlarını oxucularımıza çatdırmaq, beləliklə də, tarixi yaddaşımızı bir daha vərəqləmək məqsədilə “Tarixi Naxçıvan” rubrikası ilə yazılar hazırlamağa qərar verdik.

Bu ərazilərdə zaman-zaman ermənilərin yerləşdirilməsi, böyük dövlətlər tərəfindən Naxçıvan və İrəvan əraziləri hesabına bufer dövlətin yaradılması Naxçıvanın Azərbaycanın əsas hissəsindən ərazicə ayrı düşməsi, blokadası ilə nəticələnmişdir. İndiki Naxçıvan isə, şəksiz ki, naxçıvanlıların misilsiz rəşadəti, müdrikliyi sayəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmışdır. XX əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və atdığı müdrik siyasi-diplomatik addımlar nəticəsində Naxçıvan qorunub saxlanmış və qədim diyar bugünkü möhtəşəm inkişaf və tərəqqi yoluna çıxmışdır.

Bu inkişaf isə mədəni intibahımızı şərtləndirmişdir. Naxçıvanın tarixinin öyrənilməsi istiqamətində görülən məqsədyönlü işlər “Naxçıvan tarixi” çoxcildliyi kimi fundamental bir əsərin ərsəyə gəlməsinə səbəb olmuşdur. Bizim məqsədimiz tarixi taleyi Naxçıvanla bağlı olmuş Dərələyəz, Zəngəzur, Qafan, Mehri, Vedi kimi ərazilərimizin, oradakı yaşayış məntəqələrimizin tarixi, coğrafiyası ilə bağlı məsələləri oxucularımıza xatırlatmaqdır.

Xatırlayaq ki, “Nüzhət əl qülub” əsərində orta əsr tarixçisi Həmdullah Qəzvini hələ XII-XIII əsrlərdə Naxçıvan ərazisində yerləşən şəhərlərlə yanaşı, hətta Dvini, Göyçə gölünün cənub sahillərinə qədərki əraziləri belə, Naxçıvan əraziləri kimi, Azərbaycan şəhərləri kimi təsvir edirdi. Azərbaycan torpaqlarının fərsəxlə ölçüsünü verərkən Bakıdan Xalxala, Bacravandan isə Sipan (Sübhan) dağlarına qədər olan məsafəni göstərirdi.

Yenə xatırlayaq ki, alman səyyahı İohan Şiltberqer Nuhun gəmisinin dayandığı dağların ətəyindəki Naxçıvanın tərkibində hələ XIV əsrdə Gelatı, Göyçənin cənubunu, Karnini təsvir edirdi.

Abbasqulu ağa Bakıxanov XIX əsrdə yazdığı “Gülüstani-İrəm”də Tatif və Sisyanın Naxçıvana, Mehri, Güney, Zəngəzur və Qafanın ümumilikdə Azərbaycana aid olduğunu açıq-aşkar yazırdı.

Xatırlayaq ki, Araz-Türk Respublikası yaradılarkən onun hərbi qüvvələri – 20 tabordan, sadəcə, 4-ü Naxçıvanda idisə, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngibasar, Vedibasar və Qəmərlidə yerləşdirilmişdi. Deməli, Naxçıvan ərazilərinin qorunması uğrunda mübarizə Dərələyəzdə, Zəngibasarda, Vedibasarda gedirdi.

Mənbələrdən bu cür onlarla sitatları, tarixi faktları sadalamaq olar. Milli sərhədlərin böyüklüyünü xatırlamaq milli ruhun oyanışının təməlində dayanır. Deməli, dönmək, qayıtmaq lazımdır. Qayıtmaq üçün isə yolu xatırlamaq lazımdır. Dərələyəzdəki Her-heri, Ağcakəndi, Ağdərəni, Sultanbəyi, Paşalını, Rəsulqışlağını, Gümüşxananı, Cığatayı, Gorusdakı Bayanduru, Muğancığı, Qaladərəsini, Qafandakı Zeyvəni, Mahmudlunu, Pirməzrəni, Sisyandakı Ağkəndi, Ərəfsəni, Bazarçayı, Mehridəki Mərzigidi, Mülkü, Nüvədini xatırlamaq lazımdır.

✍ **E.KƏLBİZADƏ**

# Boks üzrə muxtar respublika turniri keçirilir








***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi boks üzrə Naxçıvan Muxtar Respublika turnirinə start verilib.***

Azərbaycan Respublikası Dövlət himninin səsləndirilməsindən sonra çıxış edən federasiyanın sədr müavini Məmmədcəfər Əliyev idmançılara uğurlar arzulayıb. Daha sonra yarışın bədii hissəsi olub. Naxçıvan Dövlət Filarmoniyası kollektivinin bir-birindən rəngarəng çıxışları alqışlarla qarşılanıb.

200-ə yaxın idmançının mübarizə apardığı turnirdə keçirilən görüşlərdən sonra finalçıların adlarına aydınlıq gətirilib. 13 çəki dərəcəsində keçirilən turnirdə ən həyəcanlı qarşılaşma bu gün 60 kiloqram çəki dərəcəsində keçiriləcək final görüşü olacaq. Bu çəki dərəcəsində bir çox beynəlxalq turnirlərin qalibi olmuş Tayfun Əliyev ondan heç də zəif təsir bağışlamayan İbrahim Cəfərzadə ilə qarşılaşacaq. Hər iki boksçu Naxçıvan şəhərini təmsil edir. Digər maraq kəsb edən döyüş isə 69 kiloqram çəki dərəcəsində olacaq. Bu çəki dərəcəsində izləyicilər Elmar Qasımov və Elnur Mustafayev qarşılaşmasına şahidlik edəcəklər.

Qeyd edək ki, bu gün keçiriləcək final qarşılaşmalarından sonra uğur qazanan idmançılara adıçəkilən nazirlik və federasiya tərəfindən diplom, qiymətli hədiyyələr veriləcək.

Ötən həftə Naxçıvan idmançıları üçün yaddaqalan olub. Belə ki, "Cəsurlar" hərbi-idman və turizm oyunlarının Naxçıvan Muxtar Respublika üzrə qalibi olmuş Ordubad rayon 3 nömrəli tam orta məktəb respublika turunun final mərhələsində uğurla çıxış edib.

## Ordubad məktəbliləri üçüncü oldular

Azərbaycan Respublikası Təhsil, Gənclər və İdman, Müdafiə, Fövqəladə Hallar, Mədəniyyət və Turizm nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Respublika Veteranlar Şurasının birgə keçirdiyi yarışda respublika ümumtəhsil məktəblərinin VII-VIII sinif şagirdləri iştirak ediblər. Final yarışında Zərdab və Bakı şəhər Xətai rayonlarının məktəbliləri ilk iki pillədə qərarlaşıblar. Ordubad rayonunun komandası isə turniri üçüncü pillədə başa vurub. Qalib komandalar Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunublar.

# Bu gün çempion məlum olacaq

Futbol üzrə Azərbaycan I divizionunun lideri "Araz-Naxçıvan" futbol komandası bu gün növbəti görüşünə çıxacaq. 28-ci turda komandamız "Şəmkir"in qonağı olacaq. Ən yaxın izləyicisini bir oyun fərqi ilə 12 xal qabaqlayan muxtar respublika təmsilçisi çempionluğunu qərb bölgəsində elan etməyə yaxındır. Bunun üçün Naxçıvan təmsilçisinə bir xal da kifayət edir.

Yevlaxda "Karvan"ı məğlub etdikdən sonra Şəmkirə yollanan komandamız burdakı Olimpiya-İdman Kompleksində məskunlaşıb. Oyun bu gün bu kompleksin stadionunda keçiriləcək. Komandamız bu görüşə ciddi hazırlaşıb. Əsgər Abdullayevin yetirmələri oyunun böyük əhəmiyyət kəsb etdiyini yaxşı anlayırlar və qələbə üçün əllərindən gələni etməyə hazırdılar. "Araz-Naxçıvan"ın heyətində Bəxtiyar Soltanov istisna olmaqla, cəzalı və zədəli futbolçu yoxdur. Meydan sahibləri isə bu oyuna itki ilə çıxacaqlar. Belə ki, ötən tur qırmızı vərəqə ilə cəzalanan Ramil Sadiqov üzləşdiyi cəzaya görə mövsümü vaxtından əvvəl başa vurmalı olub.

"Şəmkir"-"Araz-Naxçıvan" matçının hakimləri də artıq bəllidir. Oyunda əsas referi kimi Ziya Nəsirov fit çalacaq. Ona meydanda Azad Hüseynov və Müslüm Əliyev yardımçı olacaqlar. 4-cü hakim funksiyasını isə Emin Nağıbəyov yerinə yetirəcək.

Qeyd edək ki, görüş bu gün saat $16^{00}$-da Şəmkir Şəhər Olimpiya-İdman Kompleksinin stadionunda keçiriləcək.

***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Şərur rayonunda voleybol birinciliyi keçirilib.***

## Voleybol birinciliyi

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının, rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilik üç gün davam edib. Yarışın final mərhələsində Çərçiboğan və Çəmənli kəndlərinin komandaları qarşılaşıblar. Finalda Çərçiboğan komandası inamlı qələbə qazanaraq birinci yerə layiq görülüb.

Qalib yerləri tutan hər iki komanda mükafatlandırılıb.

**Xəbərlər şöbəsi**

# Ailə dəyərlərimizi qoruyaq və yaşadaq

*Ailə bütün dövrlərdə birlik rəmzi kimi müqəddəs sayılıb. Təsadüfi deyil ki, ailə "kiçik dövlət" adlandırılır. Bu kiçik dövlətin idarə olunması qarşılıqlı hörmət, məhəbbət prinsipinə əsaslanır. Əgər bu kiçik dövlətin təməli möhkəm, Azərbaycan milli mentalitetinə əsaslanan zəmin üzərində qurularsa, gələcək nəslin qayğısı da az olar, sağlam psixologiyalı gənclər və ən əsası düzgün tərbiyə mühitində formalaşmış gələcəyin valideynləri yetişər. Sağlam psixologiyalı gənclik həm valideynlərinə, həm də dövlətinə, millətinə xeyirli vətəndaş deməkdir. Və bu alqoritm onu göstərir ki, ailə ilə cəmiyyət, dövlət bir-biri ilə bağlı vəhdətdə inkişaf edir. Hər birinin təməli necə qoyularsa, o inkişaf xətti ilə də davam edir.*

Azərbaycan milli mentalitetinə uyğun ailə dedikdə böyüyə hörmət, qarşılıqlı məhəbbət, kiçiklərə qayğı prinsipinə əsaslanan ailələr nəzərdə tutulur.

Ailənin fərdləri arasında nə qədər özbaşınalıq olarsa, hamı öz bildiyini edərsə, ailə dəyərləri məhv olar, səmimilik anlayışı artıq öz yerini etinasızlıq anlayışına verər. Nəticədə, bir-birini itirmək qorxusu qalmaz. Bizim dəyərlərə uyğun ailələrdə ata evin başçısı, ana qayğı mənbəyi hesab olunur. Uşaqlar isə onlardan gördüyü təlim-tərbiyə ilə böyüyüb formalaşırlar. Və həmin övladların gələcək atalıq, analıq hissləri onlarda ailədə gördükləri kimi təzahür edir. Valideynlərinin milli tərbiyə sistemi ilə böyüyən uşaqlar düzgün olmayan hər hansı bir hərəkəti etməzdən əvvəl istər-istəməz düşünür, onun nəticələrinə aydınlıq gətirməyə çalışırlar. Ata-ana ciddiyyəti olmayanda isə düşünmədən hər addımı atmağa hazır olan uşaqlar bütün pis vərdişlərdən ikiəlli yapışırlar.

Hazırkı cəmiyyət əyləncəli, yenilik dolu olduğu qədər də təhlükələrlə doludur. Səhəri kompüter qarşısında açan, yaxud gecə hamı yatandan sonra "əyləncəsindən", "dostlarından" ayrılıb gələn şəxs normal valideyn ola bilərmi? Ailəyə vaxt ayırmazsa, təbii ki, onun hansı problemləri olduğunu anlamaq çətin olacaq. Ata-anadan qayğı görməyən uşaq təsəllini qeyri-mühitdə, ziyanlı vərdişlərdə axtarmağa başlayar. Bu mühit isə onu getdikcə uçuruma aparar.

Ailəni əhatə edən mühit qeyri-normal, problemli olarsa, bu, çox pis fəsadlarla nəticələnər. Bir ailədə ki böyük-kiçik yeri bilinmir, bir süfrə arxasında əyləşmək, toplaşmaq anlayışı təbliğ olunmur, bir sözlə, ağız deyəni qulaq eşitmirsə, belə mühiti görən ailənin kiçik fərdlərini qeyri-normal, etik davranış qaydalarına zidd hərəkətlərinə görə tənbeh etməyə, onlara irad tutmağa haqqımız varmı?

Hər şey ailədən başlayır. Uşaq ailədə nə görür, nə eşidirsə, onu özünə etalon, stimul mənbəyinə çevirir. Ailə üzvləri arasında ünsiyyət mədəniyyəti olarsa, problemlər qarşılıqlı söhbətlə həll olunarsa, ailə dəyərlərinə xələl gəlməz.

Gənc ailənin birinci problemi ünsiyyət problemidir. Müasir dövr öz texnoloji yenilikləri ilə o qədər başımızı qarışdırmışdır ki, birini qavrayıb qurtarmamış o biri yaranır. Vaxt haradan gəlib gedir, anlamırıq. Həyat yoldaşına vaxt ayrılmazsa, ailənin bütün yükü onun üstünə yıxılıb qaçılarsa, həyat yoldaşı artıq öz yoldaşlıq vəzifəsini müəyyən "borc" xatirinə, övladlarının xatirinə, el qınağına tuş gəlməmək üçün yerinə yetirərsə, nəticədə, sevgisiz, söz-söhbət dolu ailə yaranar. Nifrət hissi ailənin təməlində yerləşən, bünövrəsini qoyan məhəbbət hissini kortalar.

Keçək ailənin digər üzvlərinə – uşaqlara. Boşanma yalnız böyüklər üçün problemlərin başlanğıcı demək deyil. Unutmayaq ki, boşanma hadisəsi ən çox kiçik fərdlərin psixologiyasında silinməz izlər qoyur. Onların həyatlarının bundan sonrakı hissəsinin bir tərəfini daim yarımçıq, qaranlıq, arzuedilməz edir.

Öz funksiyalarını yerinə yetirməyən, valideynlik borclarından bixəbər valideyn uşağına heç bir yaxşı vərdişi aşılaya bilməz. Nəticədə isə psixi problemli, valideyn və cəmiyyət üçün yararsız, utanc mənbəyi olan gələcək nəsil formalaşar.

Bir anlıq düşünək: bu gün bizi ailədən uzaq salan, övladlarımıza yadlaşdıran, qeyri-normal mühit, kimin nə məqsəd üçün yaratdığını bilmədiyimiz, gəldi-gedər sosial şəbəkə saytları, lakin həyatımızın ayrılmaz tərkib hissəsinə çevirdiyimiz "səvimli" məşğuliyyətlər dəyərlidir, yoxsa ailəmiz? Texnologiyanın saymaqla bitməyən faydaları hamı üçün məlumdur. Lakin ondan elə istifadə etmək lazımdır ki, ailə münasibətlərimiz pozulmasın.

Bu problemlər üçün yalnız texnologiyanı günahlandırmaq da doğru deyil. Ən əvvəl insan öz həyatında kimin və nəyin nə dərəcədə dəyərli olduğunu dərk etməlidir. Birinci planda onun üçün kimin və nəyin olduğunu aydınlaşdırmalıdır. Yəni texnologiya, əyləncə, dostlar – bütün bunlar və bu kimi faktorların hamısı bəhanələrdir. İnsanın ailəsinə bağlılığı olsa, heç bir qüvvə onu ailəsindən soyuda bilməz.

Ailə həyatında müxtəlif dövrlər var ki, o dövr böhranlı dövrlər adlanır. Heç bir ailə deyə bilməz ki, bu dövrlərdən heç olmazsa birini belə yaşamayıb; bu, yalan olar. Lakin çalışmaq lazımdır ki, həmin böhran ailə münasibətlərinin bədbəxtliyi üzərində qələbə çalmasın.

Məsələn, ilk bir il – əlbəttə, bu dövrdə mübahisələr ola bilər. Bu, normal haldır. Axı bir-birindən tamam fərqlənən iki gənc öz həyatlarını birləşdirir. Eyni evdə yaşamaq, eyni əşyaları bölüşmək, öz azadlığından qurban vermək, fikrində dəyişiklik etmək və sair kimi məqamlar ortaya çıxır. Bu zaman hər iki tərəf güzəştə getməyi bacarmalı, biri od olanda biri də su olmalıdır.

İkinci böhranlı dövr ailə tərkibinin artması, məhəbbət meyvəsinin yetişməsidir. Bəli, övlad ata-ananı bir-birinə möhkəm tellərlə bağlayan varlıqdır: ailəyə fərqlilik, sevinc, xoşbəxtlik gətirir. Ailəni öz monotonluğundan uzaqlaşdırır. Bu, yaxşı cəhətlərdir. Böhranlı cəhət isə ailənin böyüməsidir. Maddi baxımdan gərginlik, sıxıntılar, xəstə vaxtında yuxusuz gecələr başlayır. Bu isə ailə münasibətlərində istər atada, istərsə də anada ruh düşkünlüyü yaradır. Ata yorğun keçən iş mühitindən səs-küylü evə gəlir. Sabahkı iş qayğılarına yuxusuz açılmış səhərlə başlayır. Ananın isə körpənin qayğıları, məişət işləri, yuxusuzluq əsəblərini tarıma çəkir. Burada isə hər iki tərəf bir-birinin ruhi vəziyyətini, qayğılarını anlamağa cəhd etməli, bu çətin məqamdan birlikdə çıxmağı bacarmalıdır.

Növbəti böhran dövrü minbir əzab-əziyyətlə böyüdülən övladların evi tərk etməsi, ailə qurması, ata-ananın monoton, təkçaları həyata geri dönməsi ilə başlayır. İşi, ailəsi səbəbindən valideynlərinə baş çəkməyi təxirə salan övladların etinasızlığı da ata-anaya bir dərd olur. İstər oğul, istərsə də qız olsun, onları ərsəyə gətirən valideynlərin ziyarətini təxirə salmamalıdır; çəkilən əziyyətləri yerə vurmamalıdır.

*Ailənin çətinlikləri nə qədər çox olsa da, insana bəzən dözülməz əzab qapıları açsa da, ailə daim xoşbəxtlik, birlik rəmzi kimi qəbul edilərək ondan güc alınmalı və bu əzab qapıları əzmlə keçilməlidir. Həyat tənha çəkilməz. Bunun üçün ailənin qədrini bilmək, onun birliyi üçün daim çalışmaq lazımdır.*

**Bahar VƏLİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı***

## Nəbatat bağında açıq dərs

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağında Naxçıvan Dövlət Universitetinin tələbələri üçün növbəti açıq dərs keçilib. Açıq dərsdə universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbələri iştirak ediblər. "Bitki sistematikası" fənni üzrə keçilən açıq dərsdə AMEA-nın müxbir üzvü, professor Tariyel Talıbov tələbələrə Nəbatat bağında yeni istifadəyə verilmiş istixanada yetişdirilən bitkilər, onların sistematik qrupları haqqında geniş məlumat verib. Tələbələri maraqlandıran suallar cavablandırılıb. Daha sonra tələbələr Nəbatat bağının zəngin bitki kolleksiyası, nadir bitkilər bölümü, Qafqaz və Avropa florasına mənsub olan bitki nümunələri ilə tanış olublar.

## Aztəminatlı ailələr diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, Culfa rayonunun Boyəhməd kəndində yaşayan aztəminatlı Habil Quliyevin ailəsinə baş çəkilmişdir. Sözügedən komitənin, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ailənin məişət şəraiti ilə maraqlanmışlar. Ailənin üzvləri tibbi müayinədən keçirilmiş, onlara ərzaq payı verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 24, mənzil 13-də yaşamış Hüseynov Hüseyn Həsən oğlunun adına olan 5114 inventar nömrəli texniki pasport və 02/54 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "11-ci məhəllə", döngə 10, ev 2-də yaşayan Nəbiyev Cəbrayıl Fərrux oğluna məxsus 9363 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin kollektivi məktəbin direktoru Məlahət Rüstəmovaya, atası
**ORUCUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 398